FOMINOV CONSULTING

# ƏTRAF MÜHİTİN QORUNMASI SİYASƏTİ

2014-cü ildə təsis edilmiş "FOMİNOV CONSULTİNG" MMC 14.05.2025-ci il tarixli 33 nömrəli qərar və 506 nömrəli lisenziya əsasında Azərbaycan Respublikasında fəaliyyət göstərən sistem inteqrasiyası və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkət olaraq ətraf mühitin qorunmasını və dayanıqlı inkişaf prinsiplərini korporativ fəaliyyətinin ayrılmaz hissəsi hesab edir.

Şirkət fəaliyyətinin ətraf mühitə təsirlərini məsuliyyətlə idarə etməyi, təbii resurslardan səmərəli istifadəni, çirklənmənin qarşısının alınmasını və ekoloji məsuliyyət mədəniyyətinin formalaşdırılmasını özünün əsas prioritetlərindən biri kimi müəyyən edir.

"FOMİNOV CONSULTİNG" MMC fəaliyyət, məhsul və xidmətləri ilə bağlı potensial ekoloji aspektləri və riskləri mütəmadi olaraq müəyyən edir, qiymətləndirir və onların azaldılması məqsədilə müvafiq tədbirlər həyata keçirir. Risk əsaslı yanaşma ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsinə və dayanıqlı biznes fəaliyyətinin təmin olunmasına xidmət edir.

"FOMİNOV CONSULTİNG" MMC fəaliyyət, məhsul və xidmətləri ilə bağlı potensial ekoloji aspektləri və riskləri mütəmadi olaraq müəyyən edir, qiymətləndirir və onların azaldılması məqsədilə müvafiq tədbirlər həyata keçirir. Risk əsaslı yanaşma ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsinə və dayanıqlı biznes fəaliyyətinin təmin olunmasına xidmət edir.

Şirkətin Ətraf Mühit İdarəetmə Sistemi mütəmadi olaraq monitorinq edilir, qiymətləndirilir və təkmilləşdirilir. Təkmilləşdirmə imkanları müəyyən edilir, fəaliyyət göstəriciləri izlənilir və zəruri hallarda düzəldici və preventiv tədbirlər həyata keçirilir.

Şirkət Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyinə, tətbiq olunan normativ tələblərə və digər qəbul edilmiş öhdəliklərə riayət olunmasını təmin edir.

Ətraf mühit siyasətinin əsas məqsədi fəaliyyət nəticəsində yarana biləcək mənfi ekoloji təsirlərin qarşısının alınması, çirklənmənin minimuma endirilməsi, resurslardan səmərəli istifadə olunması və ətraf mühitin qorunmasının təmin edilməsidir.

"FOMİNOV CONSULTİNG" MMC ətraf mühit sahəsində aşağıdakı əsas öhdəlikləri qəbul edir:

- Fəaliyyət, məhsul və xidmətlərin ətraf mühitə təsirinin azaldılması;
- Ətraf mühit məqsədlərinin müəyyən edilməsi və həyata keçirilməsi;
- Çirklənmənin qarşısının alınması;
- Tətbiq olunan hüquqi və digər tələblərə riayət olunması;
- Resurslardan səmərəli istifadə və tullantıların idarə olunması;
- Ətraf mühit idarəetmə sisteminin davamlı təkmilləşdirilməsi;
- Fəaliyyətin ekoloji tələblərə uyğun şəkildə həyata keçirilməsi.

Uyğunsuzluq halları aşkar edildikdə onların səbəbləri araşdırılır, kök səbəb analizi aparılır, düzəldici tədbirlər müəyyən edilir və oxşar halların təkrarlanmasının qarşısını almaq üçün preventiv tədbirlər həyata keçirilir.

Şirkət bütün əməkdaşların ətraf mühitin qorunması sahəsində məsuliyyət daşıdığını qəbul edir və bu siyasətin tələblərinin təşkilatın bütün səviyyələrində tətbiq olunmasını təmin edir.

Bu siyasət bütün əməkdaşlar, subpodratçılar və şirkət adından fəaliyyət göstərən digər şəxslər üçün məcburidir, mütəmadi olaraq nəzərdən keçirilir və zərurət yarandıqda yenilənir.

Direktor: Aytən Mustafayeva

İmza, tarix: 17.06.2026

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT AZƏRBAYCAN RESPUBLİKASI LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC FOMINOV CONSULTING